AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE CULT OF THE HORSE IN AZERBAIJAN FOLKLORE

**Shakir Albaliyev**[1]

**UDC:** 398.22(=512.162):599.723
**LBC:** 82.3(5Aze):86.31
**HoS:** 156
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.57-67

**Keywords:**

Azerbaijan,
Turks,
Folklore,
Horse,
Cult,
Myth,
Sacred,
Real world,
Mythology

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Folklore Studies

## ABSTRACT

Mythological and real foundations of the horse cult in Azerbaijani folklore are considered in the article. In the analysis, the main features that determine the position of the horse cult are indicated, the main, important principles of the cult character are highlighted, and mythological and real representations are summarized. If we consider cults as objects of worship for those who seek help in difficult periods of life, then we can certainly say that horses have performed such a mission since ancient times. The ancient Turks tamed horses in order to bring them closer to long distances. The horse was both a means of transportation, facilitating difficult tasks, and an assistant to the cavalry, which played an important role in achieving a brilliant victory in battles with enemies. A number of specific, special traits, arising from the natural qualities of the horse, also served as a means of honoring it as a cult object.

Existing sources devoted to the mythological qualities of the horse are used in the article. Also, the author, based on his life experience, summarized his observations in a theoretical and practical unity and by means of a parallel comparative analysis considered the position of the mythological worldview in the literary and cultural thought. Referring to the work of individual researchers in this area, the analysis reflects and evaluates the specific features of the cult of the horse in the ancient Turkic worldview, as well as in Azerbaijani folklore.

In the result of the article, referring to the mythological, real qualities, the sacred meaning of the horse in the mythological myth, national folklore, literary and artistic thought, and also in real life, relevant conclusions are provided.

[1] Doctor of Philology, Associate Professor,
Leading Researcher of the Department "Mythology" of the Institute of Folklore of the Azerbaijan National Academy of Sciences; Baku, Azerbaijan
E-mail: albaliyevshakir@rambler.ru
https://orcid.org/0000-0002-4261-3054
**To cite this article:** Albaliyev, Sh. [2026]. The Cult of the Horse in Azerbaijan Folklore. *History of Science journal*, *7*(2), pp.57-67.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.57-67

***Article history:***
*Received: 05.02.2026*
*Revised: 06.03.2026*
*Accepted: 01.06.2026*
*Published: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# AZƏRBAYCAN FOLKLORUNDA AT KULTU

**Şakir Albalıyev**[1]

**UOT:** 398.22(=512.162):599.723
**KBT:** 82.3(5Aze):86.31
**HoS:** 156
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.57-67

**Açar sözlər:**

Azərbaycan,
Türk,
Folklor,
At,
Kult,
Mif,
Müqəddəs,
Real dünya,
Mifologiya

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Folklorşünaslıq

## ANNOTASİYA

Məqalədə Azərbaycan folklorunda kifayət qədər özünə yer eləmiş at kultunun mifik və real əsasları diqqət mərkəzinə gətirilir. Müəyyən bir tapınağın kult səciyyəsi daşıması üçün mühüm olan prinsiplər əsasında at kultuna mövqe qazandıran əsas əlamətlər təhlildə gözdən keçirilir, atla bağlı mifik və real görüşlərin iç-içə olduğu, yəni birinin digərini tamamladığı göstərilir. İzah olunur ki, əgər kultları çətin məqamlarda kömək, istənilən tapınaq obyekti kimi götürsək, onda ta qədimlərdən atların real baxımdan belə bir missiyanı daşıdıqları bəlli həqiqətdir. Uzaq mənzili yaxın etmək məqsədilə atı əhliləşdirmiş qədim türklər üçün o, həm müşkülü asana çevirən bir nəqliyyat vasitəsi, həm də düşmənlərlə döyüşdə parlaq qələbənin qazanılmasında mühüm rola malik süvari dəstənin köməkçisi olmuşdur. Atın təbii keyfiyyətindən irəli gələn bir sıra səciyyəvi, özəl cəhətlər onun bir kult olaraq müqəddəsləşdirilməsinə də vəsilə olmuşdur.

Təhlildə nəticəsində atın mifik keyfiyyətləri ilə bağlı mövcud qaynaqlardan istifadə edilməklə yanaşı müəllifin həyat təcrübəsindən çıxış edərək müşahidə etdikləri nəzəri və praktiki vəhdətdə ümumiləşdirilmiş, paralel, müqayisəli təhlillər yolu ilə ədəbi – mədəni düşüncəyə əsaslanılaraq mifik dünyagörüş mövqeyi nəzərdən keçirmişdir. Ayrı-ayrı tədqiqatçıların da bu sahə ilə bağlı yazdıqlarına istinad edilməklə qədim türk dünyagörüşündə, eləcə də Azərbaycan folklorunda at kultunun daşıdığı spesifik cizgilər təhlil müstəvisində dəyərləndirilmişdir.

Yekunda atın mif dünyasında, folklorumuzda, eləcə də ədəbi-bədii düşüncədə və gerçək həyatda daşıdığı mifik və real keyfiyyətlər, müqəddəs dəyər kəsb etməsi əsaslı faktlarla isbata yetirilmişdir.

[1] Filologiya elmləri doktoru, dosent,
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Mifologiya" şöbəsinin aparıcı elmi işçisi; Bakı, Azərbaycan
E-mail: albaliyevshakir@rambler.ru
https://orcid.org/0000-0002-4261-3054
**Məqaləyə istinad:** Albalıyev, Ş. [2026]. Azərbaycan Folklorunda At Kultu. *History of Science jurnalı*, *7*(2), səh.57-67.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.57-67

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 05.02.2026*
*Yenidən baxılıb: 06.03.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

 

# КУЛЬТ КОНЯ В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ

**Шакир Албалыев**[1]

**УДК:** 398.22(=512.162):599.723
**ББК:** 82.3(5Азе):86.31
**HoS:** 156
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.57-67

**Ключевые слова:**

Азербайджан,
Тюрки,
Фольклор,
Лошадь,
Культ,
Миф,
Сакральный,
Реальный мир,
Мифология

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Фольклорные исследования

## АННОТАЦИЯ

В статье рассмотрены мифологические и реальные основы культа коня в азербайджанском фольклоре. В анализе указаны основные черты, определяющие положение культа коня, выделены основные, важные принципы культового характера и обобщены мифологические и реальные представления. Если рассматривать культы как объекты поклонения, для помощи в тяжелые периоды жизни, то безусловно можно сказать о том, что лошади выполняли такую миссию с древних времен. Древние тюрки с целью сближения дальних расстояний приручали лошадей. Лошадь была одновременно средством передвижения, облегчающим трудные дела, и помощником конницы, игравшим важную роль в достижении блестящей победы в битвах с врагами. Ряд специфических, особых черт, вытекающих из природных качеств лошади, также служили средством ее почитания как культового объекта.

Автор статьи наряду с применением существующих источников, посвященных мифологическим качествам коня, также основываясь на свой жизненный опыт, обобщил свои наблюдения в теоретическом и практическом единстве и посредством параллельного сравнительного анализа рассмотрел положение мифологического мировоззрения коня в литературно-культурной мысли. Ссылаясь на работы отдельных исследователей данной области анализированы и оценены специфические особенности культа коня в древнетюркском мировоззрении, а также в азербайджанском фольклоре.

Ссылаясь на мифологические, сакральное значения коня в мифологическом мифе, национальном фольклоре, литературно-художественной мысли, а также значение его в реальной жизни сделаны соответствующие выводы.

[1] Доктор филологических наук, доцент,
Ведущий научный сотрудник отдела «Мифологии» Института Фольклора Национальной Академии Наук Азербайджана; Баку, Азербайджан
E-mail: albaliyevshakir@rambler.ru
https://orcid.org/0000-0002-4261-3054

**Цитировать статью:** Албалыев, Ш. [2026]. Культ Коня в Азербайджанском Фольклоре. *Журнал History of Science, 7*(2), с.57-67.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.57-67

***История статьи:***
*Поступила: 05.02.2026*
*Переработана: 06.03.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Məlumdur ki, atı bir minik heyvanı olaraq tarixdə ilk dəfə türklər əhliləşdirmiş, atı vəhşi çöl heyvanı olmaqdan çıxarıb, məişətdə, təsərrüfatda işlədilən ev heyvanı etmişdir. Qədim türklər atın ətini yemiş, südünü (qımız) içmişdir. Bu nöqteyi-nəzərdən də at türklərin həyatında ta qədimdən günümüzə kimi müstəsna dərəcədə əhəmiyyətə malik ev heyvanı olmuşdur. Biz azərbaycanlılar da bir türk xalqı olaraq ta qədimdən atın əhliləşdirilməsində eyni dərəcədə birbaşa iştirak etmişik. Bu köklü amillər atla bağlı qədim mifik təfəkkürümüzdə özünə əsaslı yer eləmişdir. Məhz belə amillər də məqalə mövzusunun aktuallığını şərtləndirmişdir.

## 2.At kultunun Azərbaycan folklorunda əksi

İnternet resurslarında kultlar haqqında oxuyuruq: "Kultlar tanrıların, mədəni qəhrəmanların, nəslin ilk nümayəndəsinin ilahiləşdirilmiş bütün varlıqların icmadakı müqəddəslik mövqeyinə ehtiram göstərilməsi, çətin anlarda onlardan kömək istənilməsi və xatirələrinin əbədiləşdirilməsinə yönələn kollektiv və fərdi davranış növüdür, kultun daşıyıcısının fövqəltəbiiliyinə olan inama əsaslanır. Kult – bir sıra xüsusiyyətləri ilə rituallara yaxınlaşır. Lakin kultlar rituallardan fərqli olaraq, hər an insanların ehtiyac və istəklərinin həyata keçirilməsi vasitəsinə çevrilə bilir, yəni rituallar ilin müəyyən vaxtlarında, eləcə də məişətdə baş verən mühüm hadisələrin ildönümündə (icma başçısının seçilməsi, təbii fəlakətin dəf edilməsi və s. bağlı ənənə halına düşmüş, ilin müəyyən vaxtında təkrarlanması icma tərəfindən qəbul edilmiş xüsusi fəaliyyət forması kimi) toplumun bütün üzvlərinin iştirakı ilə icra olunurdu. Bu zaman, əlbəttə, bəzi kultlar da unudulmur, onlara ehtiram göstərilir və ritualların repertuarına daxil edilirdi. Müstəqil kult ayinlərinin keçirilməsinə isə vaxt məhdudiyyəti qoyulmur, insanlar kiçik qrup halında (bir ailə çərçivəsində belə) gündəlik qayğıları ilə bağlı müqəddəs hesab edilən yerlərdə (ağac kölgəsində, ocaq və bulaq başında, göl və çay sahillərində, məbədlərdə) hər an qurban kəsə, dualar oxuya, başqa ayinlər təşkil edə bilirdi. Kultlaşdırılan varlıqlara ya fərdi yolla, ya da kütləvi şəkildə müraciətlər edib çarə diləmək mümkün idi. Beləliklə, ilkin inanışlar kult miflərinin çoxlu sayda yaranmasına təbii şərait yaratmışdı. Gözə görünən hər şey – canlı və cansız (daş, qaya, bitki, heyvan, insan, təbiət hadisəsi və s.) asanlıqla təsəvvürlərdə kultlaşdırılsa da, bəzilərinin ömrü çox qısa olurdu" [Mifologiya].

Yuxarıdakı fikirlərdən bir kult səciyyəsi daşıya biləcək nəsnələrin bir sıra özəl, mühüm keyfiyyətlərə malik olmasının şərtlərini görürük. Bunlardan biri "Çətin anlarda kultlardan kömək istənilməsi"dir, digəri "ilkin inanışların kult miflərinin yaranmasına təbii şərait yaratmasında" izah olunur. Başqa birisi "kult daşıyıcısının fövqəltəbiiliyinə olan inama" bağlıdır və s.

Bu kimi aspektlərdən düşündükdə, Azərbaycan folklorunda at kultunun xüsusi yeri aydın görünür. Atın Azərbaycan xalqının mifik təfəkküründə kult səviyyəsinə yüksəlməsi onun həm real, həm də mifik gerçəklikdə daşıdığı fövqəlcizgilərlə bağlıdır. Bütün bunların kökündə isə atı bir minik heyvanı kimi tarixdə ilk olaraq türklərin əhliləşdirməsi faktı dayanır. Miladdan çox-çox öncələr iti sürəti və gücü ilə seçilən atı özünə ram edib, əhliləşdirən ulu babalarımız atın həm də real gücünə tapınmış, yuxarıda qeyd olunduğu kimi, ondan "çətn anlarda kömək istənilmişdir". Uzaq mənzili yaxın etmək məqsədilə atdan istifadə olunması, döyüşlərdə qazanılan qələbələrdə atlardan təşkil olunmuş süvari qoşun növünün əlahiddə köməyi və s. atın real gerçəklik olaraq xalqın gözündə uca tutulması və ona kult səviyyəsində inam bəsləməyə əsaslı zəmin yaratmışdır. Yuxarıda qeyd olunan kult daşıyıcısının fövqəltəbii olmasına dair inamı da elə atın mənsub olduğu bir sıra real fövqəlkeyfiyyətlər formalaşdırmışdır. Atla bağlı bütün mühüm keyfiyyətlər folklorumuzun ayrı-ayrı janrlarında real və mifik donda öz inikasını tapmışdır. İstərdim ki, bu məqamda yenə də at kultu ilə bağlı sosial şəbəkədə – internetdə verilənlərdən bir parçaya diqqəti

yönəldək: "At çox qədim zamanlarda kultlaşdırılan, rəmzləşdirilən heyvanlardan biridir, öküzlə müqayisədə daha geniş əhatə dairəsinə malikdir və həyat gücünü, hətta ölünün (cəsədin) canlandırılmasını bildirirdi. Təsadüfi deyil ki, buzlaşma çağının mağara mədəniyyətində qayaüstü rəssamlığın əsas mövzusunu məhz öküzlər və vəhşi atlar təşkil etmişdir. A.Lerua - Quran belə hesab edir ki, tarixəqədərki rəssamlıqda hər iki heyvan dualistik görüşləri əks etdirir: işıq-qaranlıq, gecə-gündüz, od-su, isti-soyuq, xeyir-şər ...

Bu qarşılaşmaya aid xüsusiyyətlər Azərbaycan türklərinin də ilkin mifoloji təsəvvürlərində, folklor, qədim yazılı ədəbiyyat qaynaqlarında öz izlərini qoruyub saxlamışdır. Təkcə Koroğlunun atının dərya suyu, od, işıq, zülmətlə əlaqənməsini xatırlamaq kifayətdir. Yunanlardakı insan-at sintezi – kentavrlar da dualizmin (şüurlu-şüursuz, ölüm-həyat) simvollaşmasıdır. Mifoloji görüşlərdə iki aləm arasında əlaqə əsasən atlar vasitəsi ilə mümkün idi.

Tarixə bəllidir ki, oturaq həyat sürən xalqları köçəri atlı tayfalar narahat etməyə başlayandan sonra min il ərzində Şərqi Avropa va Mərkəzi Asiyada da atlar əhliləşdirilmişdir. Beləliklə, ən əski zamanlarda bu sirli heyvan çox hallarda ölülər aləmi ilə əlaqələndirilmiş və dünyasını dəyişənlər üçün atlar qurban kəsilmişdir. Cəsədin at dərisinə bükülərək basdırılması adətinin də əsasında həmin inam dayanmışdır. At qurbankəsmə ritualının Qafqazda – Azərbaycanda icra edilməsi barədə tarixin atası Herodot və alban tarixçisi M.Kalankatuklu da məlumat vermişdir" [Mifologiya].

Göründüyü kimi, burada atın ən qədim zamanlardan kultlaşdırıldığı göstərilir ki, bu da səbəbsiz deyil. Çünki at əski çağlardan türklərin iqtisadi-mədəni, hərbi həyatında fəal mövqeyə malik olmuşdur. O ki qaldı kultun mağara mədəniyyətindəki qayaüstü təsvirlərdə dualist görüşləri özündə əks etdirməsinə, bu da həyatın təbii inkişaf qanunauyğunluğuna əsaslanır. Belə ki, olum olan yerdə ölüm-itim də var, gecə olan yerdə səhər də açılmalıdır və s.

At muraddır deyən babalarımız yuxuda at görməyi arzusuna çatmaq kimi yozsalar da, bəzən yuxuda at ölümü də bildirir. Bu da atın ölülər aləmi ilə də əlaqələndirilməsinin bir göstəricisidir. Bu xüsusda özümün şahidi olduğum iki məqamı xatırlatmaq istəyirəm.

2004-cü ilin 29 fevralında insult keçirən atamın vəziyyəti ağır idi. Martın 5-dən 6-na keçən gecə yuxumda gördüm ki, qapımızdakı ata minmişəm, ayağımda da uzunboğaz çəkmələr var. Mən atı mahmızlayıb Muğan kanalı boyunca üzü yuxarı molla Qubadxan müəllimgilə doğru çapıram. Yuxumun bu yerində məni yuxudan oyatdılar, son dəqiqələrini yaşayan atamın yanına apardılar. Yuxuda atın murada yetişmək olduğunu eşitdiyimdən, gördüyüm acı mənzərəni qəbul etmək istəmirdim. Atamın ölümündən bir müddət sonra atın yuxuda təkcə uğur əlaməti deyil, həm də ölümə işarə demək olduğunu öyrəndim.

Bir hadisəni də elə o vaxtlar gördüyümü qeyd edim. Atam içəridə ağır halda idi. Atamın atı pəncərənin qabağına gəlib fınxırırdı, dedilər ki, at sahibinin öləcəyini əvvəlcədən hiss eləyir, ona görə də atam yatan evin pəncərəsindən içəri boylanıb bu hərəkəti edirmiş. Atla bağlı onu da eşitmişəm ki, at əgər dönüb sahibinin üzünə tərəf baxmırsa, deməli, onda sahibinin öləcəyi vaxta az qalıb. Həm də deyirlər ki, at yeganə heyvandır ki, Əzrayılı görür.

Deməli, at Əzrayılın sahibinin canını almağa gəlməsini gördüyündəndir ki, at həmin məqamlarda çönüb yiyəsinin üzünə baxmır. Yaxud da sahibinin ölümündən az əvvəl gəlib onun xəstə yatdığı evin ətrafında dayanıb ayaqlarını yerə döyməsi, fınxırması əlaməti də onun ölülər dünyası ilə, mələk Əzrayılı görə bilməsi ilə bağlı sirli keyfiyyətləridir. Bütün bu kimi real gördüyüm faktlar da bir daha "mifoloji görüşlərdə iki aləm arasında əlaqənin atlar vasitəsilə mümkünlüyünü" göstərir.

### 3.Müsəlman dünyasında atın mifoloji dəyəri və tətbiqi

Filologiya üzrə fəlsəfə doktoru Nailə Əskər "İslam coğrafiyası və Azərbaycanda oyunlar" [2017] monoqrafiyasında atçılığın idman aləmində də mühüm yeri olduğuna diqqəti yönəldib yazır:

"Müsəlmanların müharibə və düşmən hücumunun qarşısını almağa hazırlaşmaları səbəbindən atçılıq idmanı İslam cəmiyyətində, xüsusilə də Misirdə yüksək mövqe tutmuşdu. Bu oyunlar müharibə dövründən başqa, sülh zamanı da böyük rol və əhəmiyyətə malik idi. İslam coğrafiyasının bir çox böyük şəhərlərində tez-tez atçılıq yarışları keçirilirdi. Sultanlardan tutmuş aşağı təbəqənin nümayəndələri belə bu yarışları izləmək üçün meydanlara gəlirdi.

Atçılıq yarışlarına aşağıdakı idman növləri daxil idi:

– At yarışları (cıdır),
– Oxatma yarışları,
– Qılıncoynatma yarışları,
– Nizəatma yarışları.

Çoxmillətli İslam aləminin bir hissəsini təşkil edən türklərin tarixində də idman böyük əhəmiyyət daşımışdır. Türklərin Orta Asiyadan dünyanın müxtəlif yerlərinə yurd qurmaq üçün yayılması, daim müharibələr etməsi onlardan güclü və at çapmaqda məharətli olmağı tələb edirdi. Onlar rəqiblərinə qalib gəlmək üçün qüvvətli, cəld, sürətli olmaq məcburiyyətində idilər. Bu səbəblərə görə də qədim türklər daim idmanla məşğul olmuşlar. Ənənəvi idman növləri üzrə həmişə yarışlar təşkil olunmuş və bu idman oyunları böyük inkişaf yolu keçmişdir" [Asker, 2017, s.77].

Göründüyü ki, alim at yarışlarının Azərbaycanın idman aləmində mühüm yer tutduğunu göstərməklə bahəm atların uğur qazanma – qələbə çalmaq sahəsində xüsusi əhəmiyyətini də qeyd edir. Kitabdakı "Atçılıq və at yarışları" adlı bir yarımbaşlıqda isə müəllif atçılığın türklər üçün idman növündən daha çox bir həyat tərzi olduğuna diqqət çəkib, atla bağlı oyunların islam dünyasında da geniş yayıldığını göstərir ki, əslində bunu da qədim türklərin atı və atla bağlı idman yarışlarını dünyaya və islam aləminə ərməğanı kimi də qəbul etmək olar:

"Atı ilk əhliləşdirən və ona təlim verən xalqlardan biri də türklərdir. Atçılıq idman növündən çox türklərin həyat tərzidir. At təlimi və at minmək türklər üçün bir sənətdir. Bu gün tətbiq olunan at təlimi fəndlərinin bir çoxu qədim türklərdən qalmışdır. Türklər at ilə bütünləşə bilən, atın bir parçası ola bilən və atı yormadan minə biləcək qədər usta minicilər idi. Onlar yəhərsiz ata minməkdə də çox mahir idilər.

Türklərin hər şəhərində at yarışı üçün bir sahə olurdu və hər cümə günü təşkil olunmuş yarışlarda onlar güclərini sınayırdılar. Türklərdə at yarışlarından həyat yoldaşı seçimində də istifadə olunmuşdur. Atlı qızlar bir qrup halında yarışa başlar və arxalarından atlarını qrup halında çapan oğlanlar içlərindən birini tutub atlarının tərkinə alardılar. Daha sonra seçdikləri bu qızlarla evlənərdilər. Əgər bir qızın istəyəni çox olardısa, qız yarışa tək olaraq başlayar, daha sonra arxasından oğlanlardan ibarət qrup atlarını çapardı. Qrupdan kim qızı tuta bilsə, o, qızla evlənmək haqqını əldə edərdi.

Ərəblər at yarışlarını hələ cahiliyyə dövründən keçirirdilər. Onlar bu yarışlarda mərc üçün pul qoyurdular. İslam dövründə ilk at yarışı hicrətin 6-cı ilində keçirilmişdi. Sonralar at yarışları xəlifələr üçün yalnız yarış xüsusiyyətindən çıxaraq, həm də əyləncəli oyunlara çevrildi. Əməvi xəlifələrinin sahib olduğu atların sayı dörd mindən çox idi.

At yarışları elə bir səviyyəyə çatmışdı ki, yarış keçirilən gün bayram kimi qeyd olunurdu. Bu yarışlarda mükafat və hədiyyələr paylanırdı. Yarış üçün seçilən atların əlamətləri olmalı idi Bu əlamətlərdən bəzisi bunlar: atın burnu nazik olmalı idi ki, suyu

küpədən içə bilsin. Yanağında ət olmamalı, gözləri və badamcıq vəziləri böyük, bədəni enli, qulaqları, quyruğu va boynu uzun olmalı idi.

Yarış vaxtı startda kəndir bağlanılırdı və onun yanında bir nəfər dayanıb, işarə ilə yarışın başlanmasını bildirirdi. Atların qaçdığı məsafə müəyyən edilir və qaçış zolağı kərpiclə xətlənirdi. Xətlənmiş zolağa səkkizdən artıq at yerləşmirdi. Zolaqların sonunda yerə oxlar basdırılırdı. Bu oxlardan ardıcıllıqla yeddi qalib üçün mükafatlar asılırdı.

Belə yarışlarda aşağıdakı qaydalar var idi:

– Atla dəvənin eyni yarışda iştirak etməsi qadağan idi. Heyvanların dırnaqları startda bir xətt üzrə olmalı idi.
– Atlar eyni cinsdən olmalı idi.
– Yarışda müəyyən bir məsafə olmalı idi.

At yarışında qələbə atın boynu ilə, dəvə yarışlarında isə qabaq ayağın dırnağı ilə müəyyən edilirdi. Əgər iki atın boynu finiş xəttini eyni vaxtda keçirdisə, qələbə heyvanın başı ilə ölçülürdü. Burada da eyni vəziyyət alınsa idi, mükafatın qiyməti iki qalib arasında bölünürdü.

Orta əsrlərdə Misirdə at yarışları ən əsas yarışlardan biri hesab edilirdi. İdmanın bu növü üçün xüsusi meydançalar salınırdı. Bəzən geniş meydançalarda atla sürətli dəvələr arasında da yarış keçirilirdi” [Asker, 2017, s.79-80].

Burada at yarışları ilə yanaşı dəvələrin də yarışa qatılması göstərilir ki, at türklərin, dəvəçilik isə ərəblərin əsas məşğuliyyəti və həyatlarının ayrılmaz parçası hesab olunur.

Nailə xanım haqlı olaraq bu günkü at oyunlarının bəşəriyyətə türklərdən miras qaldığını göstərir. Atçılığın müxtəlif sahələrdə mühüm əhəmiyyətindən danışan tədqiqatçı at yarışları zamanı həyat yoldaşı seçimində də ondan istifadə olunduğunu göstərir. Bu, yadımıza “Kitabi-Dədə Qorqud” qəhrəmanlarını, Beyrəyin Banuçiçəklə at yarışmasını və s. salır. Təsadüfi deyil ki, türk xalqlarının qəhrəmanlıq eposlarından bəhs edən tədqiqatında da Viktor Jirmunski qəhrəmanın əsas köməkçiləri sırasında atın da adını xüsusi olaraq çəkir:

“Manasın bahadır yarağı Aç-albars adlı qılıncdan, nizədən (sabit epitetlə nayza: sır-nayza – şümal, cilalanmış nizə) və dədə-babadan qalmış Ak-kelte (hərfi mənada: ağ kelte) tüfəngindən ibarətdir. Manasın ölümündən sonra onun yarağı oğlu Semeteyə, atasının qisasçısı və şöhrətinin varisinə çatır. Xatırladaq ki, rus bahadırı İlya Murometsin yaraq-əsləhəsində “iti qılıncla” yanaşı, “polad toppuz”, “murzamets nizəsi” və “yol şalıqası” (şallağı) da mühüm yer tutur.

At bahadırın döyüş yoldaşı və əsas köməkçisi kimi, eposda savaş həyatının real şəraitinə uyğun olaraq, bahadırlıq və ya sehrli nağıllarda olduğundan az əhəmiyyət daşımır. Lakin nağılda at qəhrəmanın sehrli köməkçisi olaraq möcüzəvi xüsusiyyətlərə malikdir.

Türk və monqol xalqlarının bahadırlıq nağıllarında, köçəri həyat şəraitində sehrli köməkçi kimi ata xüsusi yer ayrılır. At öz cildini dəyişərək ulduza, quşa və ya milçəyə çevrilə bilir; xalq nağıllarının estetik qaydalarına uyğun olaraq, silkələnib balaca aygıra, “cılız, qozbel dayça”ya dönür. O, qəhrəmana ad qoyur, sehrli surətdə ona “xalq va mal-qara” yaradır, onun qisməti olan adaxlını nişan verir, ona gedən yoldakı sehrli maneələri bildirir, qıza qovuşmağın yolunu göstərir, qəhrəmanı ucsuz-bucaqsız ümmanlardan keçirib dünyanın o başına, “yerlə göyün qovuşduğu” yerlərə aparır. O, ölmüş qəhrəmanı dirilik suyu ilə dirildir və ya quyruğunun bir tükünü yetmiş sajen dərinlikdə quyuya sallayaraq onu yeraltı qaranlıqdan dartıb çıxarır.

At qabaqcadan qəhrəman üçün müəyyən edilir və at özü gələcək sahibini tanıyır. Onu bahadırla qarşılıqlı əlaqələr bağlayır; bahadırla bir gündə anadan olub. Bəzən hər ikisinin doğulmasına sehrli haminin qəhrəmanın atasına bağışladığı sehrli alma səbəb olur, almanın qabığı və ya özəyi madyana çatır va ondan bahadırın gələcək atı doğulur.

Nağıl at obrazında qəhrəmanın sehrli köməkçisi kimi qədim totem inanclarına əsaslanan insanın sehrli köməkçisi kimi vəhşi heyvan haqqında mifoloji təsəvvürlərlə uzaq əlaqələri qoruyub saxlayır. Tipoloji cəhətdən sonrakı qəhrəmanlıq eposunda bu nağıl motivləri xeyli zəifləyir, ancaq bahadırın əsas köməkçisi və dəyişməz yolyoldaşı kimi bahadır atının ideallaşdırılması elementi olaraq saxlanılır.

At nəinki öz sahibinin dediyini anlayır, onun özü də insan kimi danışmağı bacarır: Homerin "İliada"sında olduğu kimi, rus bılinalarında və şahzadə Marko haqqında serb nəğmələrində bu qədim motiv qorunub saxlanmışdır. At yaxınlaşan təhlükə haqqında qəhrəmana xəbər verir, ayaqlarını yerə döyərək bahadır yuxusuna getmiş qəhrəmanı oyadır; bu motiv dəfələrlə qədim fransız eposunda da təkrarlanır, ona görə də adətən hesab edirlər ki, fransız təsiri altında bu motiv almanların Volfditrix haqqında eposuna keçmişdir. Ancaq biz bu motivləri Firdovsinin “Şahnamə”sində, özbək eposunda (“Gündüz və Yulduz”, “Məlaikə Ayar”) və Firdovsinin təsiri istisna edilən arxaik Altay bahadırlıq nağılı “Alıp-Manaş”da da müşahidə edirik. O, qəhrəmana düşmənə qalib gəlməkdə kömək edir və ya yaralanmış bahadırı döyüş meydanından çıxarır. Fransız eposundakı Reno de Montobanla onun atı Bayardın həssas dostluğu ilə “Şahnamə”dəki Rüstəmlə Rəxşanın, cənubi slavyan nəğmələrindəki Marko Kraleviçlə Şarasın, rus bılinasındakı İvan Qostinıy ilə Burkonun, türk xalqlarının epik dastanlarındakı Alpamışla Bayçibaranın, Koroğlu ilə Qıratın, kalmık eposu “Canqarnamə”də Canqarla Rıjkonun, Xonqorla qonur Lıskonun, akademik B.Y.Vladimirtsovun qeydə aldığı mongol-oyrat dastanlarında Bum-Erdeni ilə “dağ boyda zirək boz Lısko”nun dostluqları arasında müqayisə aparmaq olar. Ona görə də Şaras insan diliylə danışırsa və ya Markın yaxın ölümünü duyaraq insan kimi göz yaşı tökürsə, bu, o demək deyil ki, alman tədqiqatçısı prof. V.Volnerin güman etdiyi kimi, bu motivlər “Şahnamə”dən alınmışdır; bu xüsusiyyətlər eyni dərəcədə Homer eposunun bahadır atlarına, orta əsrlər fransız və rus dastanlarına da xasdır.

İlxıdan qəhrəman üçün nəzərdə tutulmuş atın seçilməsi, onun döyüş keyfiyyətlərinin yoxlanılması, xam atın ram edilməsi bahadırlıq nağıllarının mütləq süjet qaydalarına aiddir: bahadırın ilk səfəri və ilk döyüş şücaəti üçün məhz elə bir at, elə bir qılınc lazımdır ki, onların köməyilə igidlik göstərmək mümkün olsun.

Atın seçimi və tutulub ram edilməsi qəhrəmanın gücünün ilk sınağı hesab edilir və bununla yanaşı, bu, elə atın özünün də sınağıdır və nağılda bu sınaqlar adətən möcüzəvi xarakter daşıyır.

Bu xüsusiyyətlər qəhrəmanlığın ideallaşdırılması miqyasına çatdırılması şərtilə eposda saxlanıla da bilər. Rüstəm Rəxşanı ona görə seçir ki, təkcə bu at onun bahadır əlinin ağırlığına tab gətirir. “Sasunlu David”də də Qorqik-işxanın tövləsindəki qırx ən yaxşı atdan heç biri Mqerin əlinin ağırlığına tab gətirmir (“əlini hansı atın belinə vurdusa, o at yerə yıxılıb çapalamağa başladı”), Mqer ikiyaşlı qalıntüklü madyanı (cılız, qozbel dayça!) seçir ki, o da böyüyüb bahadır atı olur. Bu xüsusi məqamda alınma ehtimalı istisna edilmir, çünki orta əsrlər Ermənistanı bilavasitə İranın mədəni təsiri altında idi. Ancaq eyni xüsusiyyətləri biz Marko Kraleviç haqqında dastanın bəzi xalq variantlarında da görürük ki, burada həmin təsir az ehtimal olunur. Həmin fikrə vulqarlaşmış formada Alpamış haqqında kazan-tatar nağılında da rast gəlinir; burada da atlar sınaqdan keçirilir: sınağa tab gətirən möhkəm atı tapanadək qəhrəman hansı atın quyruğundan yapışırsa, onun dərisi çıxır” [Jirmanski, 2017, s.27-29].

Gördüyümüz kimi, V.Jirmunski qəhrəmanlıq eposlarında atın bahadırın döyüş yoldaşı olduğunu, eyni zamanda bu yoldaşlığın “savaş həyatının real cizgiləri ilə uyğunluq yaratdığını”, eləcə də sehrli nağıllarda isə hətta atın möcüzəvi xüsusiyyətlərə də sahib olduğunu göstərir. Bütün bu fikirlər isə bir daha onu göstərir ki, at qədim türklərin ayırlmaz yol yoldaşı, sadiq silahdaşı olmaqdan savayı, həm də mifik səciyyəyə bürünmüş müqəddəs

kult daşıyıcısıdır ki, epos və nağıllarda bunun açıq-aydın izlərini görürük. V.M.Jirmunskinin qeyd etdiyi "Atın qabaqcadan qəhrəman üçün müəyyən edilməsi, atın öz sahibini əvvəlcədən tanıması" və s. kimi əlamətlər də bir bədii yaradıcılıq faktı olaraq türk folklorundan digər qeyri-türk xalqların da şifahi yaradıcılığına transfer edilmişdir. Yəni başqa sözlə, atı əhliləşdirib bəşəriyyətə miras verən türklər atla bağlı mifik düşüncə tərzini də bədii yaradıcılıq məhsulları vasitəsilə digər xalqlara da ötürmüşlər. Belə ki, atın təkcə cismani varlıq kimi özünü yox, mənəvi varlıq-qəhrəmanlıq obrazı olaraq daşıdığı real-mifik keyfiyyətləri də türklər bəşəriyyətə ərməğan etmişlər. Bunu V.Jirmunskinin özünün də burada misal gətirdiyi "Sasunlu David" eposunun nümunəsində açıq-aşkar şəkildə təsdiq edirik. Bir sözlə, türklərin at kultu ilə bağlı yaratdıqları mənəvi ədəbi xəzinə digər qeyri-türk etnoslarının da şifahi və yazılı ədəbi nümunələrinə transfer edilmişdir.

Filologiya üzrə fəlsəfə doktoru Fidan Qasımova "Oğuz və kelt eposlarında at obrazı və onun mifoloji kökü" adlı məqaləsində atın daşıdığı funksiyalara və atla bağlı mövcud olan mifik inanclara diqqəti yönəldib yazır. "Atın bir çox funksiyaları inanclarda da özünü göstərir. məsələn, türk folkloru materiallarında atla bağlı qurban mərasimlərinə və matəm mərasimlərinə də rast gəlmək olar. Bununla bağlı tədqiqat aparan A.İnan yazır ki, "qədim dövrlərdə türklərdə qurban kəsmək üçün ən çox arzu olunan heyvan erkək heyvan idi. "Dədə Qorqud" hekayələrinin qəhrəmanları olan oğuzlar qurban kimi "atdan ayğır, dəvədən buğra, qoyundan qoç" kəsmişlər.

Buna dastanın bir çox boyunda rast gəlinir. Məsələn, "Qanlı Qoca oğlu Qanturalı boyu"ndan buna örnək verə bilərik: "... Ağ-boz atlarını minib çapdılar, bəy atasının yanına çatdılar. Atası oğlunu gördü, allaha şükür elədi. Qanlı Qoca öz oğlu və gəlini ilə oğuz yurduna girdi. Böyük və gözəl çəmənlikdə çadır qurdurdu. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirdi".

"Türklər arasında çox yayılmış matəm adətlərindən biri də vaxtilə ölünün sürdüyü atın quyruğunu kəsməkdir. Əski oğuzlar islam dininin qəbulundan sonra da bu ənənəni qoruyub saxlayıblar". Çünki "qədim türklər üçün döyüşdə ölmək ölümlərin ən şərəflisidir. Ölən döyüşçünün atının quyruğu kəsilir və məzarı başına asılırdı. Döyüşçü çox vaxt atla birlikdə dəfn edilirdi. At digər dünya, ölüm və yeraltı aləmlə bağlı heyvandır və ölən döyüşçünün ruhunu tanrıya çatdırır. Bunu da əlavə etmək lazım gəlir ki, Hun va Göytürklərdə ölən Alpların saçları kəsilir və saçlar hörüklü şəkildə məzara qoyulurdu. Həyat yoldaşlarının saçları və atlarının quyruqları da yas əlaməti olaraq kəsilirdi. Buna "Dullama" adı verilirdi. At va həyat yoldaşı dul qalmış sayılırdı. Yakutlar Ay ilə eyniləşdirdikləri Ürüng Ay Toyona canlı bəyaz at qurban edir və qansız qurban olaraq at sürülərini sərbəst buraxırdılar. Yakut miflərində atın göydən endiyi və onun Ürüng Ay Toyon tərəfindən insanlara verildiyindən bəhs edilir. Türklər tərəfindən ağ atlar mübarək və məqbul sayılır".

Yakutların mənşəyi haqqında bir əfsanəyə görə, guya onların ilkin əcdadları yarı at, yarı insan şəklində göydən enmiş bir varlıqdır. Çin mənbələrinə görə də Göytürk dövləti içərisində və Altay dağlarında yaşayan tarduş türklərinin atası "qurd başlı bir kişi imiş". A.Şükürov isə bu haqda yazır ki, "əgər nəsil bu və ya digər heyvanla əlaqədar totemə malik idisə, onda ilkin totemik əcdadlar çox vaxt zooantropomorf təbiətli – iki simalı varlıq kimi təsəvvür edilirdi. İlk əcdadlar ölərkən təbiət predmetlərinə, heyvanlara, həmçinin ruhlara çevrilə bilərdi" [Gasimova, 2020, s.87-88].

Müxtəlif mənbələrə istinadla irəli sürülmüş bu mülahizələrdə atla bağlı bir sıra mifik inanclar öz əksini tapmışdır. Burada yas əlaməti olaraq sahibi öldüyü halda atın quyruğunun kəsilməsi adətinin mövcudluğu haqda fikir özünə yer alıb. Eyni zamanda göstərilir ki, ölən döyüşçülərin həyat yoldaşlarının saçları da kəsilirdi. Bu adətlər indinin özündə də faciə əlaməti kimi özünü Azərbaycan xalqı içərisində qoruyub saxlayıb. Lakin bir qədər fərqli nüanslar özünü göstərir.

*Əzizim tikə-tikə,*
*Doğrandım tikə-tikə.*
*Anan saçını yolur*
*Kəfənin tikə-tikə.*

tipli bayatışəkilli ağı nümunəsində də ifadə olunduğu kimi, əzizi ölən qız-qadınlar saçlarını yolub, ya kəsib qəbir üstə atarlar ki, bu, göründüyü kimi, dərin kədəri, yası ifadə edir. Ancaq atın yalının – quyruğunun kəsilməsi namusun tapdalanması mənasına gələn ağrı-acını ifadə edir. Kiminsə atının quyruğunun kəsilməsi onun namusuna toxunmağa bərabər bir şeydir. İsmayıl Şıxlının "Dəli Kür" romanında düşmənləri xəlvətcə gəlib Cahandar ağanın sevimli atının quyruğunu kəsirlər. Bunu özü üçün böyük namussuzluq hesab edən Cahandar ağa məcbur qalıb öz sevimli atını güllə ilə vurub öldürür.

Yəni eyni adət-ənənə, inanc özünü bir qədər fərqli şəkildə günümüzədək yaşatmaqdadır. Bu da keçmişlərdən gələn at kultu ilə bağlı inanc və görüşlərin müasir çağda da yaşamını sürdürdüyünü özündə əks etdirir. Yakutların ilkin əcdadlarının yarı at – yarı insan şəklində göydən enmiş varlıqlar olması haqda əfsanə isə birbaşa at kultu ilə bağlı görüşlərin əsasında əcdad kultunun iştirakını göstərir. Həmçinin Atın göydən endiyi və Ürüng Ay Toyon tərəfindən insanlara verilməsi haqdakı yakut mifi də atın ilahi mənşəyə bağlı kult olduğunu ortaya qoyur. Bu kimi mifik təsəvvürlər bir daha atın sıradan bir heyvan olmadığını, zahirdə olduğu kimi, düşüncədə də qeyri-adi sehrə-gücə malik olduğunu söyləməyə əsas verir. Atın səma mənşəli müqəddəs varlıq olması ilə bağlı mifik düşüncələrlə real həyatda fövqəlgücə, iti sürətə malik canlı heyvan olması haqda faktlar bir-birlərini tamamlamaqla təsəvvürlərdə müqəddəs at kultunun yaranıb-formalaşmasını şərtləndirmişdir.

## 4.Nəticə

Azərbaycan folklorunda at kultunun səbəbsiz, yəni göydəndüşmə olmadığı bir sıra elmi araşdırmalarla təsdiq edilmişdir.

Atın kult səviyyəsinə yüksəlməsi ilk növbədə atın qədim türklərin məişət həyatında öncül yerlərdən birini tutması ilə bağlı olmuşdur. İkincisi, atın özünün real təbiətindən – yəni onu digər canlılardan fərqləndirən bir sıra mühüm keyfiyyətləri, o cümlədən real, fövqəl keyfiyyətləri onun dini-mifik-ilahi səciyyədə milli folklorumuzda özünə yer eləməsinə səbəb olmuşdur.

Digər tərəfdən, atın özünəməxsus qeyri-adi keyfiyyətləri, cizgiləri onun mifik keyfiyyətləri arasında qırılmaz bağlılığa səbəb olaraq folklorumuzda təzahür etməsinə rəvac vermişdir.

Bütün bunlarla yanaşı, atın səciyyəvi cizgiləri ilə bağlı aparılan araşdırmalar və digər faktoloji bazalar onun digər xalqların da folklorunda və məişət mədəniyyətində oxşar mifik-ilahi dəyər qazandığını təsdiq edir.

## 5.REFERENCES


1. Mifologiya (n.d.). *Cults*. Mifologiya.az. Retrieved from https://mifologiya.az/mifologiya/mifin_struktur_seviyyeleri/kultlar/
2. Asker, N. (2017). *Islamic geography and games in Azerbaijan*. Baku: Elm ve Tehsil, 160 p.
3. Jirmanski, V. (2017). *Epic of national heroes*. Baku: Azerbaijan Translation Center, 432 p.
4. Gasimova, F. (2020). The horse figure and its mythological origin in Oghuz and Celtic epics. *Dede Gorgud Journal*, N 2 (69), pp.86–93.

## ƏDƏBİYYAT

**1.** Mifologiya (ts.) *Kultlar*. Mifologiya.az. Alındı https://mifologiya.az/mifologiya/mifin_struktur_seviyyeleri/kultlar/

**2.** Əskər, N. (2017). *İslam coğrafiyası və Azərbaycanda oyunlar*. Bakı: Elm və təhsil, 160 s.

**3.** Jirmanski, V. (2017). *Xalq qəhrəmanları eposu*. Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 432 s.

**4.** Qasımova, F. (2020). Oğuz və kelt eposlarında at obrazı və onun mifoloji kökü. *"Dədə Qorqud" jurnalı*, N 2 (69), s.86–93.